# Tarixə yazılan möhtəşəm qələbə

**Bu gün Azərbaycan dövləti özünün ən şanlı tarixini yaşayır. Son on yeddi il ölkəmizin həyatının bütün sahələrində sürətli inkişaf, nəhəng yüksəliş, tərəqqi dövrü oldu. Ötən bu dövr ərzində ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ardıcıl surətdə həyata keçirilən məqsədyönlü siyasət nəticəsində Qarabağ münaqişəsinin ədalətli həlli üçün əlverişli hüquqi baza formalaşdı, vacib beynəlxalq sənədlər qəbul olundu. Eyni zamanda dövlətin praqmatik siyasəti ölkənin güclənməsinə, maliyyə imkanlarının artırılmasına, müasir ordu quruculuğuna istiqamətləndi.**

Bu illər ərzində ölkənin ərazi bütövlüyünün bərpa olunması dövlətimizin gündəliyində duran əsas məsələ idi. Buna nail olmaq üçün Prezident İlham Əliyev beynəlxalq müstəvidə ardıcıl, məqsədyönlü fəaliyyət həyata keçirir, Ermənistanın işğalçı siyasəti nəticəsində yaranan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı əsl həqiqəti dünya ictimaiyyətinin diqqətinə çatdırırdı. Qətiyyətli, düşünülmüş siyasətin nəticəsində münaqişənin həlli üçün əlverişli hüquqi zəmin formalaşdı. Nəhayət, Azərbaycanın işğal olunmuş əraziləri 2020-ci il sentyabrın 27-də başlayan, cəmi 44 gün davam edən Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz tərəfindən təcavüzkar ermənilərdən azad edildi. Bu savaşda Azərbaycan işğalçı Ermənistandan hər cəhətdən qat-qat üstün olduğunu nümayiş etdirdi və onu tam kapitulyasiyaya məruz qoydu. Beləliklə, ölkəmizin ərazi bütövlüyü təmin olundu. Vətən müharibəsində qazanılan şanlı qələbə Azərbaycan dövlətinin hərbi gücünü və xalqımızın yenilməz ruhunu bütün dünyaya nümayiş etdirdi. Cənab Prezident İlham Əliyevin təbirincə desək: "bu həm siyasi, iqtisadi gücdür, hərbi gücdür xalq-iqtidar birliyidir və bizim regionda oynadığımız müsbət roldur. Biz bu gücdən istifadə edərək qarşımızda duran əsas vəzifəni şərəflə yerinə yetirdik".

Vətən müharibəsində xalqımızın ölkə rəhbərinin həyata keçirdiyi uğurlu siyasətini dəstəkləməklə bir daha sübut olundu ki, erməni faşizminə qarşı mübarizədə uğurların əldə edilməsində milli birliyimiz son dərəcə böyük əhəmiyyət kəsb edir. Ölkə rəhbərinə olan yüksək inamın nəticəsidir ki, xalqımızın vətənpərvər oğulları onun çağırışına dərhal qoşularaq torpaqlarımızın işğaldan azad olunmasına səfərbər olub silaha sarıldılar. Yenilməz Azərbaycan ordusu "Dəmir yumruq" əməliyyatında şücaət göstərərək xalqımızın tarixinə parlaq səhifələr yazdı. Vətən müharibəsinin ilk günlərindən başlayaraq Ali Baş Komandan əsgərlərimizin qəhrəmanlığı ilə fəxr etdiyini, qürur duyduğunu bildirirdi: "Bu gün bizim əldə etdiyimiz qələbə və apardığımız hərbi əməliyyatlar həm texniki imkanlar baxımından, eyni zamanda operativ addımlar, əməliyyatların hazırlanması və icra edilməsi baxımından bütün dünyada öyrənilir. Bu, yeni nəsil müharibə üsuludur, hansı ki, planlaşdırma, texniki təchizat, texnologiyaların tətbiqi, əməliyyatların düzgün planlaşdırılması və həyata keçirilməsi, hərbçilərimizin döyüş qabiliyyəti və mənəvi ruhu birləşir, vəhdət təşkil edir". Qazandığımız qələbə milli qürurumuzun təntənəsinə çevrildi. İşğaldan azad olunmuş torpaqlarda müqəddəs üçrəngli Azərbaycan bayrağı dalğalanmağa başladı. Biz torpaqlarımızın həmişəlik sahibi olduq. Dövlət başçısının söylədiyi kimi, Vətən müharibəsinin çoxşaxəli əhəmiyyəti bundan ibarətdir ki, biz həm doğma torpaqlarımızı işğaçılardan azad etdik, düşməni torpaqlarımızdan qovduq, həm də dövlətimizin ərazi bütövlüyünü bərpa etdik.

44 günlük müharibədə Prezident İlham Əliyev təkcə Azərbaycanı qalib etmədi. Eyni zamanda müasir dünya siyasətində həllini gözləyən bir sıra məsələləri uğurla həll etdi. Ermənistan təkcə hərb meydanında məğlub edilmədi. Prezident İlham Əliyev dünyanın məşhur KİV-nə verdiyi müsahibələri ilə bir neçə yüz il boyunca dünyanı aldadan uydurma erməni təbliğatını təkbaşına darmadağın etdi. Yüz milyonlarla insan erməni yalanlarını başa düşdü və dünya erməni faşizminin iç üzünü gördü.

Müharibə zamanı qardaş Türkiyə dövlətinin ölkəmizə göstərdiyi dəstəyi xüsusi vurğulamaq lazımdır. "Zəfər" paradında cənab Prezident İlham Əliyev demişdir: "Vətən müharibəsinin ilk günlərindən, daha doğrusu, ilk saatlarından biz Türkiyənin dəstəyini hiss edirdik. Türkiyənin Cümhurbaşkanı Rəcəb Tayyib Ərdoğan ilk saatlardan Azərbaycanın haqq işinə öz dəstəyini verdi. Onun açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını çox sevindirdi. Mənim qardaşım demişdir ki, bu müharibədə Azərbaycan haqlıdır, demişdir ki, Azərbaycan tək deyil və Türkiyə hər zaman Azərbaycanın yanındadır. Bu, birliyimizin, qardaşlığımızın təzahürüdür. Türkiyənin Azərbaycana verdiyi siyasi və mənəvi dəstək hər bir Azərbaycan vətəndaşını qürurlandırır və sevindirir". Ölkəmizlə əməkdaşlığın və tərəfdaşlığın getdikcə möhkəmlənməsi, Türkiyə kimi güclü qardaş dövlətin ulu öndər Heydər Əliyevin dediyi kimi "Bir millət, iki dövlət" tezisinə əsaslanaraq yanında olması və onun atdığı istənilən addımı müdafiə etməsi bütün dünyaya nümunə olan və daim güclənən Azərbaycan-Türkiyə münasibətlərindən, bu əlaqələrin gücündən və sarsılmazlığından xəbər verir.

Mənfur düşmən 30 il ərzində nəzarəti altında saxladığı torpaqlarımıza sözün əsl mənasında vəhşi münasibət bəsləyib. İşğaldan təmizlənən ərazilərdən təqdim olunan foto və videomateriallar ermənilərin tarixi Azərbaycan torpaqlarında törətdikləri vandalizm əməlləri barədə konkret təsəvvür yaradır. Hər şey dağıdılıb, viran qoyulub. Onların ağacları kəsdiklərinə, meşələri yandırdıqlarına, bir vaxtlar yurddaşlarımızın tikdirdikləri evlərə od vurduqlarına dair ikrah doğuran çoxlu kadrlar transmilli mediada nümayiş etdirilmişdir.

Bu gün ölkə başçısının göstərişi ilə işğaldan azad olunmuş torpaqlarımızda nəhəng quruculuq və yenidənqurma işləri aparılır. Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara tarixi səfərləri və ən əsası isə bu səfərlər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən strateji obyekt və müəssisələrin təməlinin məhz dövlətimizin başçısı tərəfindən qoyulması həm siyasi, həm də iqtisadi cəhətdən böyük əhəmiyyət kəsb edir. Hazırda Azərbaycanı Naxçıvanla birləşdirəcək ən böyük layihə Horadiz-Ağbənd dəmir yolu, 101,5 kilometr uzunluğu olan Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun inşası sürətlə davam edir. Şuşaya çəkilən avtomobil yolunun inşasında qardaş Türkiyənin şirkətlərinin cəlb olunmasının böyük əhəmiyyəti vardır. Bundan başqa, dövlət başçımızın iştirakı ilə Zəngilan rayonunun Üçüncü Ağalı kəndində "Ağıllı kənd" layihəsinin icrasına, Bəsitçay Dövlət Təbiət Qoruğunun bərpasına start verilib. Prezident İlham Əliyev Həkəri çayı üzərində yerləşən 8 meqavat gücündə "Güləbird" Su Elektrik Stansiyasının açılışında iştirak edib və böyük strateji əhəmiyyət daşıyan Horadiz-Ağbənd dəmiryolu xəttinin təməlini qoyub.

Əfsuslar olsun ki, müharibə itkisiz olmur. Mənfur düşmənə qarşı qəhrəman övladlarımız mərdliklə vuruşdular, vətən uğrunda canlarından keçdilər. İkinci Qarabağ müharibəsində 3 minə yaxın şəhidimiz oldu. Xeyli sayda qazilərimiz var. Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə, müharibə əlillərinə dövlət tərəfindən xüsusi diqqət və qayğı göstərilir. Onların problemlərinin aradan qaldırılması üçün tədbirlər həyata keçirilir. 44 günlük Vətən müharibəsində şəhid olan qəhrəman oğullarımızın ailələrinin, yaralanan, zərərçəkən mülki vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı dövlət başçısı tərəfindən ardıcıl olaraq fərman və sərəncamlar imzalanıb. Bu günə qədər ümumilikdə 9 min 200-ə yaxın şəhid ailəsi, müharibə əlili dövlət tərəfindən mənzillərlə təmin edilib. Təkcə ötən il 1572 mənzil verilib. Bu il isə 3 minə yaxın mənzil veriləcəkdir. 300-dən çox qazimiz protezlərlə təmin ediləcəkdir.

Ümumiyyətlə, ölkəmizdə şəhid ailələrinə, müharibə əlillərinə göstərilən dövlət qayğısının əhatə dairəsi kifayət qədər genişdir. Prezidentin aylıq təqaüdü və digər sosial ödənişlər həmin vətəndaşların rifahının yaxşılaşdırılmasına xidmət edir. Bu istiqamətdə bir çox sosial proqramlar həyata keçirilir. Eyni zamanda şəhidin vərəsələrinə, müharibə əlillərinə sığorta ödənişi və digər ödəmələr də edilir. Şəhid ailələrinin üzvləri və müharibə əlillərinin övladları təhsil ödəməkdən azaddırlar. Aktiv məşğulluq proqramlarının icrasında da bu kateqoriyadan olan şəxslərə üstünlük verilir. Eləcə də, onların məşğulluğunun təmin edilməsi məqsədilə bütün işə götürənlər üçün məcburi kvota müəyyən edilir.

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da şəhid ailələri və Qarabağ qaziləri ilə bağlı mühüm sosial layihələr həyata keçirir. Fond tərəfindən Qarabağ qazilərinin müalicəsinə xüsusi diqqət yetirilir. Bu istiqamətdə qazilərimizin yüksək səviyyədə müalicəsinin aparılması, zərurət yarandıqda Türkiyəyə müalicəyə göndərilməsi təmin edilir və nəzarətdə saxlanılır.

Dövlətin şəhid ailələrinə və qazilərimizə qayğısının daha bir nümunəsi "Yaşat" Fondunun yaradılması oldu. Prezident İlham Əliyevin fərmanı ilə Fondun yaradılması bu kateqoriyadan olan insanlara qayğını daha da gücləndirdi. Fond Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən olunmuş hərbi qulluqçulara və şəhid olmuş şəxslərin ailə üzvlərinə, işğaldan azad edilən ərazilərdə xidməti vəzifələrini yerinə yetirərkən, həmçinin hərbi əməliyyatlar bitdikdən sonra onun nəticələrinin aradan qaldırılmasında iştirakı zamanı əlilliyi müəyyən olunmuş dövlət qurumlarının üzvlərinə və ya həlak olmuş əməkdaşların ailə üzvlərinə müvafiq yardımlar göstərir.

Prezidentin müvafiq tapşırığına əsasən şəhid ailələrinin və Qarabağ əlillərinin problemlərinin həlli ilə bağlı yerli icra hakimiyyəti orqanlarında müvafiq şöbələr də yaradılıb. Bu addım onların sosial məsələlərinin daha çevik formada həll edilməsinə xidmət edir.

İkinci Qarabağ müharibəsi dövründə Qusar rayonunun sakinləri də Vətən savaşında qəhrəmanlıq və igidlik nümunələri göstərmişlər. Ağır döyüşlərdə qusarlı gənclər də qəhrəmanlıqla həlak oldular. 38 nəfər şəhidlik zirvəsinə yüksəldi. 120 nəfər ağır yaralandı. Rayon İcra Hakimiyyəti, hüquq inzibati orqanlarının rəhbərləri və əməkdaşları müharibədə həlak olmuş döyüşçülərin hər birinin dəfn mərasimlərində iştirak etməklə bərabər, dəfələrlə onların ailələrinə baş çəkmiş, qazilərin yanında olmuşlar. Qusar rayon Prokurorluğu da bu işdə fəallıq göstərmiş, şəhid ailələrinin qayğı və problemləri ilə yaxından tanış olmuşlar. Şəhid ailələri və qazilərlə görüşlərdə onların inzibati orqanlara aid heç bir şikayəti və müraciəti qeydə alınmamışdır. Görüşlərdə qaldırılan problemlər əsasən sosial məsələlər olmuşdur ki, bununla bağlı da tərəfimizdən aidiyyəti üzrə məsələ qaldırılmışdır. Tərəfimizdən şəhid ailələrinə və qazilərə mənəvi dəstək göstərilməsi, onların qayğı və problemlərinin öyrənilməsi istiqamətində görüşlər, müvafiq işlər mütəmadi olaraq davam etdirilir.

**Elxan ƏBDÜRRƏHİMOV,**
**Qusar rayon prokuroru,**
**baş ədliyyə müşaviri.**